**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ERKƏN ORTA ƏSRLƏRDƏ ALBANİYANIN UTİ VİLAYƏTİNİN YAŞAYIŞ MƏSKƏNLƏRİ

İxtisas: 5505.02 – Arxeologiya

Elm sahəsi: Tarix

İddiaçı: **Zümrüd Nağı qızı Qəhrəmanova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**NAXÇIVAN – 2024**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Antropologiya İnstitutunun "Azərbaycanın orta əsrlər dövrü arxeologiyası" şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: Tarix elmləri doktoru, professor
**Arif Məhəmməd oğlu Məmmədov**

Rəsmi opponentlər: Tarix elmləri doktoru, dosent
**Vəfa Əzbər qızı Mahmudova**

Tarix üzrə fəlsəfə doktoru
**Emin Məmmədəli oğlu Məmmədov**

Tarix üzrə fəlsəfə doktoru
**Könül Alim qızı Kərimova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA Naxçıvan Bölməsinin nəzdində fəaliyyət göstərən ED 1.13 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü, tarix elmləri doktoru, professor
**İsmayıl Muxtar oğlu Hacıyev**

Dissertasiya şurasının elmi katibi: Tarix elmləri doktoru, dosent
**Emin Arif oğlu Şıxəliyev**

Elmi seminarın sədri: AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor
**Vəli Baxşəli oğlu Baxşəliyev**

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**. Dünyanın insanlar tərəfindən məskunlaşmış ən qədim mədəniyyətlərin ilkin ocaqları sırasında Xəzər-Aralıq dənizi, İran körfəzi əraziləri durur. Ulu babalarımızın ən qədim nəsillərinin yaşadığı tarixi Azərbaycan torpaqları bu regionun mərkəzində yerləşir. Bu baxımdan Azərbaycan tarixinin və arxeologiyasının erkən orta əsrlər mərhələsi Qafqaz Albaniyasının mühüm bir dövrünü əhatə edir. Qafqaz Albaniyasının tarixi-coğrafi, etnik-siyasi, iqtisadi-sosial, mədəni mənzərəsinə nəzər salsaq, görərik ki, Qafqaz Albaniyası indiki Azərbaycan Respublikası, tarixi türk torpaqları olan Zəngəzur mahalı, Rusiya Federasiyası Dağıstan Respublikasının cənub hissəsi və şərqi Gürcüstanın bir hissəsini əhatə edən geniş əraziyə malik qüdrətli bir dövlət olmuşdur. Bu dövlət artıq iki əsrə yaxındır ki, elmi ədəbiyyatda məhz Qafqaz Albaniyası adı ilə tanınır. "Qafqaz Albaniyası" terminini isə elmi ədəbiyyata ilk dəfə 1846-cı ildə rus tədqiqatçısı A.Yanovski gətirmişdir.

Albaniya haqqında ilk yazılı məlumatlara qədim yunan, latın, erməni, gürcü, Suriya və ərəb mənbələrində rast gəlinir. Qədim Albaniya dövləti haqqında ən mükəmməl elmi-tarixi mənbə isə alban tarixçisi Musa Kalankatlının "Albaniya tarixi"[1] adlı əsəridir. Uti vilayətinin ilk orta əsr abidələrinin arxeoloji tədqiqi də bu baxımdan əhəmiyyətlidir. Tədqiq olunan ərazi mərkəzi Bərdə olmaqla Kür çayının sağ sahilində yerləşən alban torpaqlarını təşkil edirdi. Bu bölgə şimal və şimal-şərqdən Kür çayı (Qarqar düzü də daxil olmaqla), cənub-şərqdən Araz çayı, o cümlədən Paytakaran (Kaspiana) ilə, qərbdən Arsax vilayəti ilə sərhədlənirdi. Vilayətin şimal-qərb torpaqları Sakasena və Girdiman vilayətlərini əhatə edirdi. İstər Sovetlər dönəmində, istərsə də müstəqillik illərində bölgənin ilk orta əsr yaşayış yerlərində aparılan arxeoloji tədqiqatların nəticələri hesabatlarda, məruzə və tezislərdə, məqalələrdə əksini tapsa da, kompleks şəkildə tədqiqata cəlb edilməmişdir. Aparılan arxeolji və yazılı qaynaqlara əsasən erkən

[1]Kalankatlı, M. Albaniya tarixi // tərc. Z.M.Bünyadov. – Bakı: Elm, – 1993. – s. 235

orta əsrlərdə Qafqaz Albaniyası əyalətlərə, vilayətlərə və mahallara bölünürdü. Albaniya ərazisində 12 vilayət mövcud olmuşdur. Bu vilayətlərə daxil idi (Kabalaka, Şəki, Kambisena, Əcəri, Çola, Lipina, Kaspiana, Uti, Sakasena, Girdman, Arsax və Sünik.) V.Piriyevə görə Albaniyanın Kürün sağ sahilindəki əraziləri 4 böyük nahanqa (əyalətə), 6 vilayətə bölünmüşdü. Nahanqlar Arsax, Uti, Paytakaran və Sünikdən ibarət idi.[2] Aparılan arxeoloji və yazılı mənbələrə əsasən deyə bilərik ki, Qafqaz Albaniyasının Uti vilayətinin müasir tarixi coğrafi ərazisi Ağdərə, Tərtər, Goranboy, Ağdam, Ağcabədi, Bərdə, Füzuli rayonlarının ərazisini və müasir Yevlax rayonunun Kür çayının sağ sahilində yerləşən əraziləri əhatə etmişdir.

Qafqaz Albaniyasının tarixi ərazilərindən biri olan Uti vilayətinin ilk orta əsr yaşayış yerlərində aparılmış arxeoloji tədqiqatların nəticələrinin kompleks şəkildə tədqiq olunması zərurəti də mövzunun aktuallığını şərtləndirən əlamətlərdəndir. Həmçinin, Uti vilayətinin vaxtı ilə bir hissəsinin işğal altında olduğunu və ermənilərin əsassız ərazi iddialarını, maddi mədəniyyət abidələri üzərində apardıqları saxtakarlıqları və beynəlxalq ictimaiyyəti çaşdırmağa yönələn cəhdləri də bu bölgənin ilk orta əsr yaşayış yerlərinin daha dərindən tədqiqini aktuallaşdırır. Mövzunun aktuallığını şərtləndirən amillərdən biri də Uti vilayətinin ərazisində yerləşən və mənbələrdə adı çəkilən ilk orta əsr yaşayış yerlərinin bu vaxta qədər lokallaşdırılmamasıdır.

Təqdim olunacaq dissertasiya işində ən aktual məsələlərdən biri ilk orta əsr yaşayış yerlərinin adlarının dəqiqləşdirilməsi, şəhər və kənd tipli yaşayış yerlərinin ilk dəfə olaraq sistemli şəkildə arxeoloji tədqiqata cəlb edilərək öyrənilməsi, onların Qafqaz Albaniyasının ilk orta əsrlərdəki siyasi, iqtisadi və mədəni həyatındakı yerinin müəyyənləşdirilməsidir. Uti vilayətinin ilk orta əsr yaşayış yerləri tədqiq olunarkən bölgənin təbii-coğafi mühitinin və yaşayış məskənlərinin xarakterik xüsusiyyətlərinin nəzərə alınması diqqətdə saxlanılmışdır. Yaşayış yerlərinin yaranması və onların tənəzzülündə ticarət karvan

---

[2]Piriyev, V.Z. Azərbaycan tarixinin siyasi coğrafiyası / V.Z. Piriyev. – Bakı: Araz, – 2002, – 152 s.

yollarının, bölgədən axan çayların və onlardan çəkilən arxların, ərazidə baş vermiş siyasi proseslərin, yadelli hücumlarının və daxili çəkişmələrin təsiri də mövzunun araşdırılmasında əsas şərtlərdəndir.

Təqdim olunan mövzunun ayrıca dissertasiya mövzusu kimi işlənilməsi Uti vilayətinin Qafqaz Albaniyasının erkən orta əsrlər dövrü tarixinin, arxeologiyasının öyrənilməsindəki yerinin dəqiqləşdirilməsi baxımından da diqqəti cəlb edir. Həmçinin, tədqiqat işinin erkən orta əsrləri (III-IX əsrlər) əhatə etməsi Qafqaz Albaniyasının Uti vilayətinin əhatə etdiyi ərazidə aparılan arxeoloji qazıntılar zamanı əldə edilən maddi mədəniyyət qalıqlarının dövrü ilə əlaqəlidir.

Qafqaz Albaniyasının Uti vilayətinin arxeoloji abidələri ayrı-ayrılıqda arxeoloqlar, etnoqraflar, tarixçilər və s. tərəfindən pərakəndə şəkildə qismən tədqiq olunmuşdur. Ərəb müəlliflərindən Əl-İstəxri, Əl-Məsudi, İbn Hövqəl və digərlərinin əsərlərində Uti vilayətinə daxil olan ərazilər haqqında xüsussilə də Bərdə haqqında məlumatlar yer alıb.[3] Azərbaycan arxeoloqlarından Qüdrət İsmayılzadənin Füzuli rayonundakı Qaraköpəktəpədə, Rəhim Vahidovun Ağdam rayonu ərazisindəki Govurqalada, Rəşid Göyüşovun Qarabağın xristian məbədlərinin yerləşdiyi ilk orta əsr yaşayış yerlərində, Aləm Nuriyevin, Arif Məmmədovun Bərdə şəhəri ərazisində (Şətəl şəhər yerində), Hidayət Cəfərovun Tərtər rayonu ərazisindəki Toxmaxtəpənin ilk orta əsr təbəqəsində, Təvəkkül Əliyevin Beyləqandakı tədqiqatlarından Uti vilayətinin ərazisi, yaşayış yerləri, müdafiə tikillilərindən və s. bəhs edilir.

R.B.Göyüşovun "Qarabağın keçmişinə səyahət"[4] əsərində Qarabağ bölgəsində, həmçinin Uti vilayətində daş bütlər, məbədlər və digər maddi mədəniyyət abidələri haqqında dəyərli məlumatlar vardır. Müstəqillik dövründə erkən orta əsr abidələrində, Şortəpədə, Balatəpədə A.M.Məmmədov tərəfindən aparılan arxeoloji kəşfiyyat işləri bu dövrü öyrənmək baxımından dəyərlidir. Q.S.İsmayılzadənin "Arxeo-

---

[3]Vəlixanlı, N.M. IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında / N.M.Vəlixanlı. – Bakı: Elm, – 1974. – 223 s.

[4]Göyüşov, R.B. Qarabağın keçmişinə səyahət / R.B.Göyüşov. – Bakı: Azərnəşr, – 1993. – 83 s

loqun çöl gündəliyindən”[5] adlı əsərləri bölgənin tədqiqi baxımından qiymətlidir. Tədqiqatçının Qaraköpəktəpə yaşayış yeri, Yedditəpə, Əhmədalılar türbəsi və s. tarixi maddi-mədəniyyət abidələri və yaşayış yerləri haqqında verdiyi məlumatlar diqqətəlayiqdir. Qarabağın, bütövlükdə Azərbaycanın VII-IX əsr tarixini öy-rənmək baxımından akademik Z.M.Bünyadovun “Azərbaycan VII-IX əsrlərdə”[6] kitabı əhəmiyyətlidir. Kitabda Azərbaycanın, o cümlədən onun tərkib hissəsi olan Qarabağ bölgəsinin ərəb istilası ərəfəsindəki sosial-iqtisadi və siyasi vəziyyəti, əhalinin ərəblərə qarşı mübarizəsi, istiladan sonrakı dövrdə inzibati ərazi bölgüsü, vergi sistemi, kənd təsərrüfatı, sənətkarlıq, ticarət və s. haqqında dəyərli məlumatlar verilib.

Q.M.Əhmədovun “Orta əsr Beyləqan şəhəri”,[7] T.R.Əliyevin “Qalatəpə antik Alban şəhər məskəni və nekropolunda tədqiqatlar”,[8] T.M.Məmmədovun “Qafqaz Albaniyası ilk orta əsrlərdə”,[9] A.B.Nuriyevin “Qafqaz Albaniyasının şüşə məmulatı və istehsalı tarixi”,[10] A.Ş.Orucovun “İlk orta əsrlərdə Azərbaycanda dulusçuluq”,[11] M.C. Xəlilov Albaniyanın yaşayış yerləri (IV–X əsrlər),[12] K.K.Şükürovun Azərbaycan Albanşünaslığının (Qafqaz) tarixinə dair (Dünya üzrə təd-

---

[5]İsmayılzadə, Q.S. Arxeoloqun çöl gündəliyindən / Q.S.İsmayılzadə. – Bakı: Xəzər Universiteti, – 200. – 202 s.

[6]Bünyadov, Z.M. Azərbaycan VII-IX əsrlərdə / Z.M.Bünyadov. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – 1989. – 336 s.

[7]Əhmədov Q.M. Orta əsr Beyləqan şəhəri / Q.M.Əhmədov. – Bakı: Elm, – 1979. – 197 s.

[8]Əliyev, T.R, Qalatəpə antik Alban şəhər məskəni və nekropolunda tədqiqatlar // T.R.Əliyev, F.İ.Babayev, T.T.Hüseynova [və b]. – Bakı: Azərbaycanda arxeoloji tədqiqatlar, – 2012. – s. 226-234.

[9]Məmmədov, T.M. Qafqaz Albaniyası ilk orta əsrlərdə / T.M.Məmmədov. – Bakı: Təhsil, – 2006, – 400 s.

[10]Nuriyev, A.B. Qafqaz Albaniyasının şüşə məmulatı və istehsalı tarixi / A.B.Nuriyev. – Bakı: Elm, – 1981, – 168 s.

[11]Orucov, A.Ş. İlk orta əsrlərdə Azərbaycanda dulusçuluq / A.Ş.Orucov. – Bakı: Elm, – 1989, – 72 s.

[12]Xəlilov, M.C Albaniyanın yaşayış yerləri (IV–X əsrlər) / M.C.Xəlilov. – Bakı: – 2010. – 284 s.

qiqatlar kontekstində xronoloji biblioqrafiya ilə),[13] əsərlərindən istifadə edilmişdir.

R.M.Vahidovun "Mingəçevir III-VIII əsrlərdə,[14] A.M.Məmmədovun"Gəncəbasar IV-XIII əsrlərdə",[15] Q.Ə.Cəbiyevin "Girdiman tarixi və tarixi coğrafiyası",[16] X.A.Qasımovun "Orta əsrlərdə Azərbaycan mədəniyyəti"[17] və s. monoqrafiyalarından, elmi məqalələrindən və əsərlərindən istifadə edilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin tədqiqat obyektini Qafqaz Albaniyasının Uti vilayətinin ilk orta əsr yaşayış yerləri, qəbir abidələri, müdafiə tikililəri, istehkamları, eləcə də onlarda aparılan arxeoloji qazıntılar zamanı aşkarlanmış maddi mədəniyyət qalıqları və s. təşkil edir.

Dissertasiya işinin tədqiqat predmetini Qafqaz Albaniyasının Uti vilayətinin ilk orta əsr yaşayış yerlərinin, qəbir abidələrinin, müdafiə tikililərinin, istehkamlarının, eləcə də onlarda aparılan arxeoloji qazıntılar zamanı aşkarlanmış maddi mədəniyyət qalıqlarının əsas xüsusiyyətlərinin və onların Albaniyanın digər vilayətlərinin analoji maddi-mədəniyyət nümunələrindən fərqli xüsusiyyətləri, tərəfləri və s. təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədini ilk orta əsrlərdə Qafqaz Albaniyasının Uti vilyətində şəhər və kənd tipli yaşayış məskənlərinin yaranması, inkişafı və tənəzzül səbəbləri, əhalinin təsərrüfat həyatı, dini görüşləri, sənətkarlığı, tikinti memarlıq abidələri, iqtisadi-ticarət əlaqələrinin müəyyən edilməsi təşkil edir.

---

[13]Şükürov.K.K.. Azərbaycan Albanşünaslığının (Qafqaz) tarixinə dair (Dünya üzrə tədqiqatlar kontekstində xronoloji biblioqrafiya ilə / K.K.Şükürov. – Baki: , – 2023, – 388 s

[14]Vahidov, R.M. Mingəçevir III-VIII əsrlərdə. – Bakı: Azərbaycan EA nəşriyyatı, – 1961, – 158 s.

[15]Məmmədov, A.M. Gəncəbasar IV-XIII əsrlərdə (tarixi arxeoloji tədqiqat) / A.M.Məmmədov. – Bakı: Elm, – 1993, – 203 s.

[16]Cəbiyev, Q. C. Girdiman tarixi (IV-IX əsrlər) / Q.C.Cəbiyev. – Bakı: Şərq– Qərb, – 2010, – 616 s.

[17]Qasımov, X.A. Orta əsrlərdə Azərbaycan mədəniyyəti / X.A. Qasımov. – Bakı: Aspoliqraf, – 2008, – 448 s.

Yazılı mənbə məlumatları ilə arxeoloji qazıntıların nəticələrinin uzlaşdırılması, onların müqayisəli təhlili və yekun nəticəyə gəlinməsi də tədqiqat işinin mühüm məqsədlərindəndir.

Tədqiqatın mühüm vəzifəsi erkən orta əsrlərdə Qafqaz Albaniyasının Uti vilayətinin arxeoloji abidələrinin xəritəsinin tərtib edilməsi, həmin abidələrin təhlil olunması, maddi mədəniyyəti haqda ümumi təsəvvürün yaradılması, təsərüffat həyatının (əkinçiliyin, maldarlığın, sənətkarlığın, ticarətin) inkişafının izlənilməsidir.

**Tədqiqat metodları**. İş yazılarkən tarixi Uti vilayətinin erkən orta əsr abidələrində aparılmış arxeoloji qazıntılar zamanı aşkarlanmış maddi-mədəniyyət qalıqlarının öyrənilməsində müasir arxeologiya elmində qəbul edilmiş tipoloji təhlil metodu əsas götürülmüşdür. Eyni dövrə aid müxtəlif tipli yaşayış yerlərinin öyrənilməsində, eləcə də aşkar edilən arxeoloji dəlillərin mənbə məlumatları ilə uzlaşdırılmasında müqayisəli təhlil metodundan, həmçinin analiz, sintez, ümumiləşdirmə metodundan istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

- Xronoloji, yaxud coğrafi yerləşmənin dəqiqləşdirilməsi, tarixi hadisələrin obyektiv tədqiqi.

- Yaşayış məskənləri, arxeoloji materialların xronologiya, arxeologiyasının və tarixi-etnoqrafik metodlarla müəyyənləşdirilməsi;

- Arxeoloji mənbələrin – tədqiq olunan ərazilərdən tapılmış əmək alətləri, məişət əşyalarının, dini-inanc və s. xarakterli maddi-mədəniyyət nümunələrinin – bir sözlə, Qafqaz Albaniyasının Uti vilayətinin tarixi-coğrafi, sosial-iqtisadi və təsərrüfat və s. sahələrinin mənzərəsini canlandıran elmi müddəaların aşağıdakı şəkildə formalaşdırılaraq əhatəli şəkildə tədqiq olunması:

- Uti vilayətinin ilk orta əsr Şəhər tipli, kənd tipli yaşayış yerlərinin tarixi-arxeoloji baxımından tədqiqini həyata keçirtmək;

- Uti vilayətinin erkən orta əsr qəbir abidələrini, müdafiə tiklilərini, istehkamlarını araşdırmaq və orada aparılan arxeoloji qazıntılar zamanı aşkarlanmış maddi mədəniyyət nümunələrinin tədqiqini həyata keçirmək;

- Qafqaz Albaniyasının Uti vilayətinin ilk orta əsrlər dövründə

ölkənin digər bölgələri ilə iqtisadi və mədəni əlaqələrini arxeoloji materiallar əsasında araşdırmaq;

**Tədqiqatın elmi yeniliyi**. Dissertasiya işi Qafqaz Albaniyasının Uti vilayətinin erkən orta əsr maddi mədəniyyətinin öyrənilməsinə həsr olunmuş ilk ümumiləşdirici elmi tədqiqat işidir. İlk dəfə olaraq Uti vilayətinin erkən orta əsr yaşayış yerləri abidələri qruplaşdırılaraq kompleks şəkildə müqayisəli təhlil edilmiş, Uti vilayətinin tarixi – coğrafiyası, siyasi tarixi araşdırılmış, arxeoloji xəritəsi tərtib edilmiş, şəhər tipli, kənd tipli yaşayış məskənləri tədqiq edilmiş, yaşayış məskənlərində olan qalalar, müdafiə istehkamları, qəbir abidələri, Uti vilayətinin əhalisi təsərrüfat həyatı, sənətkarlığı, ticarət əlaqələri, dini abidələri araşdırılmış yazılı və arxeloji maddi mədəniyyət nümunələri əsasında öyrənilmişdir. Ayrı-ayrı arxeoloqlar tərəfindən aparılmış arxeoloji qazıntıların nəticələrinin ümumiləşdirərək elmi süzgəcdən keçirilməsi tədqiqatın mühüm yeniliklərindəndir. Dissertasiya işlənərkən müxtəlif vaxtlarda bölgənin və qonşu ölkələrin ilk orta əsr abidələrinin materialları ilə müqayisələr aparılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işinin nəticələrindən Uti vilayətinin ilk orta əsr yaşayış yerlərinin tədqiq olunmasının bölgənin Azərbaycanın siyasi, iqtisadi və mədəni tarixində tutduğu yerin müəyyənləşdirilməsində, çoxcildli Azərbaycan tarixi, Azərbaycanın arxeologiyasına dair ümumiləşdirici əsərlərin yazılmasında, Qarabağ bölgəsində tarix və memarlıq abidələrinin mühafizəsində Azərbaycanın maddi mədəniyyətdəki ənənəviliyin və irsiliyin izlənilməsində, müvafiq sahələr üzrə ali və orta məktəb dərsliklərinin hazırlanmasında, Qarabağ üzrə elmi-kütləvi filmlərin hazırlanmasında, bölgə üzrə arxeoturizmin təşkilində istifadə etmək olar.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya giriş, üç fəsil, nəticə, ədəbiyyat siyahısı, ixtisar olunmuş sözlər, işə əlavə edilmiş tablo və şəkillərdən ibarətdir. Dissertasiyada araşdırılan problemlər üzrə iddiaçının elmi tədqiqat işinin əsas nəticələri AMEA Arxeologiya və Antopologiya İnstitutunun "Azərbaycanın Orta Əsrlər Dövrü Arxeologiyası" şöbəsində müzakirə edilərək nəşr olunmuş məqalələrdə elmi ictimaiyyətə çatdırılmışdır. Tədqiqat işinin əsas yekunları ilə əlaqədar respub-

lika və beynəlxalq əhəmiyyətli konfranslarda elmi məqalələrlə çıxışlar edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi AMEA Arxeologiya və Antopologiya İnstitutunun “Azərbaycanın Orta Əsrlər Dövrü Arxeologiyası” şöbəsində yerinə yetirilmiş, İnstitutun digər şöbələrindən dəvət edilmiş əməkdaşların iştirakı ilə müzakirə edilmiş və müdafiəyə təqdim olunmuşdur.

**Dissertasiya işinin həcmi.** Dissertasiyanın həcmi, I Fəsil 30 min, 102 işarədən, II Fəsil 173 min, 640 işarədən, III Fəsil 48 min, 616 işarədən, nəticə hissəsi isə 21,692 işarədən ibarət olmaqla, cəmi 274 min, 138 işarə sayı təşkil etməklə 167 səhifədən (illüsturasiyalarla birgə 216 səhifədən) ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**“Giriş”** hissədə mövzunun aktuallığı, tədqiqatın obyekti, məqsəd və vəzifələri, müdafiəyə çıxarılan əsas müddəalar, mövzunun mənbəşünaslıq bazası, problemin öyrənilmə vəziyyəti, tədqiqatın elmi yeniliyi, nəzəri-metedoloji əsası, dissertasiyanın aprobasiyası, quruluşu haqqında məlumat verilir.

**I fəsil “Uti vilayətinin tarixi coğrafiyası və siyasi tarixi”**adlanır. Bu fəsil **“Uti vilayətinin tarixi coğrafiyası”** və **“Uti vilayətinin siyasi tarixi” adlı** iki paraqrafa bölünərək tədqiq edilir.

**“Uti vilayətinin tarixi coğrafiyası”** adlı birinci paraqrafda Qafqaz Albaniyasının ümumi tarixi coğrafiyası tarixi mənbələr əsasında araşdırılmış əhatə etdiyi ərazilərin coğrafiyası göstərilmişdir. Qafqaz Albaniyası dövlətinin ərazisi çox geniş olmaqla şimaldan Böyük Qafqaz sıra dağlarından başlayaraq, cənubda Araz çayına indiki Mil-Muğan düzləri daxil olmaqla, qərbdə İberyayadək, şərqdə Xəzər dənizinə qədər geniş bir ərazini əhatə edirdi. Erkən orta əsrlərdə Albaniyanın özünəməxsus inzibati-ərazi idarəetmə sistemi mövcud olmuşdur (əyalət-vilayət-mahal). Uti mənbələrdə bəzən əyalət, bəzən vilayət kimi qeyd olunub. Çox güman ki, inzibati-siyasi mərkəz kimi Uti vilayət olmuşdur. Uti vilayəti Albaniyanın əsas vilayətlərində biri olmaqla, Paytakaran, Arsax vilayətləri və Kür çayı ilə həmsərhəd idi və vilayətin tərkibinə antik Ayniana , Xani, Anarika, eləcə də Xalxal, Soqari, həmçinin qədim Bərdə kimi şəhərlər daxil idi. Qarabağın qədim ərazisi olan Utidə qədim şəhərlərin mövcudluğu barədə verilən məlumatı, Şortəpədə (Bərdə), Govurqalada (Ağdam), Qaraköpəktəpədə (Füzuli), Qalatəpədə (Beyləqan) v.s yaşayış yerində aparılmış arxeoloji tədqiqatlar təsdiq edir.

Bu paraqrafda Utinin əhatə etdiyi ərazilərin arxeoloji xəritəsi tərtib edilərək müqayisəli öyrənilmiş və müasir tarixi coğrafi ərazisi Tərtər rayonlarının ərazisi, Ağdərə, Ağdam, Bərdə, Ağcabədi, Füzuli, Goranboy, müasir Yevlax rayonunun Kür çayının sağ sahilində yerləşən ərazisini əhatə etməsi qənaətinə gəlinmişdir.

**“Uti vilayətinin siyasi tarixi”** adlanan ikinci paraqrafda Uti

vilayətinin tarixi coğrafiyası və tarixi xəritəsi araşırılmışdır. Erkən orta əsr Qafqaz Albaniyasının Uti vilayətinin tarixi coğrafiyası haqqında ərəb, gürcü, bizans, erməni mənbələrində müxtəlif qərəzli fikirlər mövcuddur. Çox təssüfedici haldır ki sovet dönəmində Azərbaycan tarixşünaslığının öyrənilməsinə diqqət edilməmişdir. Bundan məharətlə istifadə edən erməni gürcü tədqiqatçıları Azərbaycanın ayrı-ayrı bölgələrini, tarixi həqiqəti saxtalaşdırmaqla, öz torpaqları kimi qələmə almağa çalışmışlar. Qafqaz Albaniyası, onun tarixi coğrafiyası və siyasi tarixi zaman-zaman araşdırmaçı və alimlərimizin tədqiqat obyekti olmaqla bənam qonşularımızın əsassız və qeyri-elmi iddialarının tutarlı cavablarının verilməsi üçün "döyüş" meydanı olmuşdur və tədqiqat işində birmənalı olaraq görkəmli elm xadimlərinin elmi araşdırma və məntiqi nəticələrinə əsaslanılır. Bu paraqrafda onların dedikləri arxeoloji və yazılı mənbələr əsasında təkzib edilmişdir.

Bu araşdırma və elmi tədqiqatlar isə birmənalı olaraq sübut edir ki, müasir Qarabağ ərazisi, Albaniyanın tarixi Uti və Arsak vilayətləri bütün tarixi dövründə Albaniyanın hüdudları daxilində olmuşdur. Bu torpaqlar Azərbaycan türklərinin tarixi-etnik torpaqları olmuş, Azərbaycan xalqının əcdadları burada minilliklər boyu maddi mədəniyyət yaratmış və onun daşıyıcıları olmuşlar. Tədqiqat işində istinad olunan mənbələrdən bəhrələnməklə bir daha əminlik yaranır ki, Uti vilayəti Qafqaz Albaniyasında istər iqtisadi, istərsə də siyasi cəhətdən əsas yerlərdən birini tutmuşdur.

**II fəsil "Yaşayış yerləri və müdafiə istehkamları"** adlanır. Bu fəsil 2.1. "Şəhər tipli yaşayış yerləri", 2.2. "Kənd tipli yaşayış yerləri", 2.3. "Müdafiə istehkamları", 2.4. "Qəbir və Memarlıq abidələri", 2.5. "Arxeoloji materialların təsnifatı" adlı beş paraqrafa bölünərək tədqiq edilir.

**2.1. Şəhər tipli yaşayış yerləri.** Şəhərlər əsas etibarilə ticarət yollarının kənarı boyu, yaxud dəniz sahilində liman-şəhər formasında, əhalinin məskunluq səviyyəsindən və urbanizasiya xarakterindən asılı olaraq salınırdı. Azərbaycanın digər bölgələrinin ilk orta əsr şəhərləri kimi Qarabağ bölgəsinin də ilk orta əsr şəhərləri arxeoloji tədqiqatlardan məlum olduğu kimi, başlıca olaraq içqala (narınqala) və

bayırqaladan (şəhristandan) ibarət olmuşdur. Albaniyanın, o cümlədən də Uti vilayətində yerləşən ilk orta əsr şəhərləri bir qayda olaraq qala hasarları ilə əhatə olunmuşdur. Şəhərlərin içqalası (narınqala) da hündür, mağzallı və bürcləri olan qala hasarları ilə dövrələnmiş formada tikilmişdir. Bu da şəhərlərin ikiqat müdafiə sisteminə malik olduğunu göstərir. Şəhərlərin narınqala hissəsi bir qayda olaraq şəhər ərazisinin ən yaxşı, müdafiə baxımından ən əlverişli yerində tikilirdi. Şəhərlərin narınqalasının tikililəri, su təhcizatı, kanalizasiya sistemi digər sahələrdən əsaslı surətdə fərqlənirdi. Şəhərlərin şəhristan hissəsində əsasən sənətkarlar və tacirlər yaşayırdı. Yaşayış evləri ilə yanaşı şəhristanda bazarlar, karvansaraylar, hamamlar, müxtəlif sənət emalatxanaları, ictimai binalar yerləşirdi. Şəhərlərin belə bir quruluşa malik olması onun inzibati və sosial xarakterindən irəli gəlirdi. Azərbaycanın ilk orta əsr şəhərlərini qruplaşdıraraq Z.Bünyadov əsasən üç kateqoriyaya bölmüşdür: 1. ticarət-sənaye mərkəzi olan, beynəlxalq tranzit ticarət yollarının üzərində yerləşən şəhərlər. 2. əsas ticarət yollarından uzaqda yerləşən qapalı sənətkarlıq və ticarət mərkəzi olan şəhərlər. 3. Kəndtipli, yəni əkinçilik xarakterli, feodal vilayətlərinin inzibati mərkəzi olan şəhərlər.[18]

Albanşünas F.C.Məmmədova da həm Moisey Kalankatuklunun verdiyi məlumatlara istinad edərək, həm də Z.M.Bünyadovun göstərdiyimiz təhlilinə əsaslanaraq ilk orta əsr şəhərlərini eynilə üç kateqoriyaya bölmüşdür.[19] Qafqaz Albaniyasının ilk orta əsrlər dövrünün tədqiqatçısı T.M.Məmmədov da Albaniyanın ilk orta əsr şəhərləri haqqında bəhs edərkən onları üç qrupa bölmüşdür.[20] Albaniyanın ilk

---

[18]Bünyadov, Z.M. Azərbaycan VII-IX əsrlərdə / Z.M.Bünyadov. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – 1989, – 336 s.

[19]Məmmədova F.C. Moisey Kalankatlının "Alban tarixi" əsəri Qafqaz Albaniyasının ictimai quruluşu üzrə bir mənbə kimi / F.C.Məmmədova. – Bakı: Elm, – 1977, – 198 s.

[20]Məmmədov, T.M. Qafqaz Albaniyası ilk orta əsrlərdə / T.M.Məmmədov. – Bakı: Təhsil, – 2006, – 400 s.

orta əsr şəhərlərini təhlil edən M.C.Xəlilov onları quruluşuna görə beş qrupa bölmüşdür.[21]

Albaniyada şəhər tipli yaşayış yerləri özündən əvvəlki yaşayış məskənlərinin davamlı inkişafı nəticəsində meydana gəlmişdir.[22] Uti vilayətində bir çox iri inzibati və ticarət sənətkarlıq mərkəzləri olan şəhərlərin əsası antik dövrdə yaranmışdır. Onların bəziləri əvvəlcə hərbi məqsəd üçün tikilmiş, digərləri ticarət yolu üzərində məntəqə rolunu oynamış, bir neçəsi bu və ya digər hökmdarın iqamətgahı olmuş, bəziləri isə sənətkarlıq mərkəzləri kimi meydana gəlmişdir.[23] Qarabağın ən qədim şəhərlərindən yalnız biri-bünövrəsi antik dövrdə Uti nahiyyəsində qoyulmuş Bərdə şəhəri həyatını intensiv şəkildə günümüzədək davam etdirir. Bərdə şəhəri antik dövrdə formalaşmış, erkən və orta əsrlər dövründə müəyyən inkişaf yolu keçmiş, şəhər mədəniyyətinin mühüm xüsusiyyətlərini – şəhərsalma mədəniyyətini, şəhər əhalisinin məişət səviyyəsini bütün sənət növlərinin inkişafını özündə əks etdirmiş, həmçinin maddi mədəniyyətin inkişafına səbəb olmuşdur.[24] Bərdə şəhəri erkən orta əsrlərdə ölkənin paytaxtı kimi mühüm siyasi hadisələrin mərkəzində dayanmışdır

Erkən orta əsrlərdə Uti vilayətinin beynəlxalq ticarət yollarının kəsişdiyi ərazidə yerləşməsi şəhərtipli yaşayış yerlərinin inkişafına da müsbət təsir göstərib. Ərəb coğrafiyaçıları Bərdə şəhərindən cənub-şərqə doğru – Beyləqandan, Ərdəbildən keçərək Cənubi Azərbaycan və İranın başqa şəhərlərinə doğru istiqamətlənən ticarət yolunu qeyd

---

[21]Xəlilov M.C Albaniyanın ilk orta əsrlər şəhər və qalalarının lokallaşdırılması problem// M.C.Xəlilov. – Bakı, – 2006.

[22]Azərbaycan arxeologiyası: [6 cilddə] / Red.hey. sədri T.M.Dostiyev. –- Bakı: Şərq-Qərb, – c.6. – 2008. – 632 s.

[23]Мамедова, Ф.Д. Кавказская Албания и Албаны / Ф.Д. Мамедова. – Баку: ЦИКА, – 2005, – 818 с.

[24]Hacıyev Q.Ə. Bərdə şəhəri coğrafi, siyasi və mədəni tarixi / Q.Ə.Hacıyev. – Bakı : Uniprint. – 2008, – 250 s.

edirlər.[25] Belə ticarət yolları üzərində yaranan şəhər tipli yaşayış məskənlərindən Əndərobu, Kaqankatı göstərə bilərik.

Uti vilayətinin ilk orta əsr şəhər və yaşayış məntəqələrinin adları və yerləri haqqında dəqiq araşdırmalar aparılmadığından bu sahədə müəyyən boşluqlar hiss edilir. Belə ki Govurqalanın tarixi adı barədə tədqiqatçılar müxtəlif fikirlər söyləmişdilər. "Erməni tədqiqatçıları" əsassız surətdə Govurqalanın Qafqaz Albaniyası ərazisində guya mövcud olmuş Tiqranakert şəhəri olduğunu qeyd etmişlər. S.Q.Bərxudaryan S.Calalyana və M.Barxudaryana əsaslanaraq kalxozçular tərəfindən təsadüfən aşkarlanmış daş sarkofaqa əsasən Govurqala abidələrinin Tiqranakertə aid olduğunu bildirsə də onun əsaslandırdığı heç bir mənbədə Tiqranakert adı çəkilmir. Sarkofaqın daş qapağı üzərindəki yazı epiqrafist S.Barxudaryan tərəfindən oxunaraq qəbrin X əsrin əvvəllərində alban çarlığını bərpa etmiş alban çarı Hamamın qardaşına aid olduğu qənaətinə gəlinmişdir. Alban çarı ailəsinə aid olan qəbr daşının üzərindəki epitafiyanın erməni dilində və erməni əlifbası ilə yazılması belə izah oluna bilər ki, VII-VIII əsrlərdə Cənubi Qafqazda ağalıq uğrunda Bizans imperiyası ilə Ərəb xilafəti arasında gedən mübarizədə Xilafət Bizansa qarşı yönələn bütün qüvvələri müdafiə edirdi.[26]

Son illər erməni "tədqiqatçısı" H.Petrosyan, Ağdam şəhərindən 10 km şimalda, e.ə I əsrdə Tiqran tərəfindən salınmış Tiqranakert şəhərinin tapılması ilə bağlı cəfəngiyyat dolu məlumatlar vermişdir. 1751 ci ildə Qarabağ xanı Pənahəli xan Şahbulaqda tikdirdiyi qalanın xarabalıqlarını qədim Tiqranakert adlandıran, H.Petrosyan görünür, antik dövr abidəsi ilə son orta əsr abidəsini ayıra bilməyəcək qədər savadsızdır. Müzəffər Ali Baş Komandanımızın torpaqlarımızı işğalçılardan azad etməsi ilə erməni vandallarının torpaqlarımızda qanunsuz olaraq apardıqları arxeoloji qazıntılar nəticəsində Dünya və Qafqaz

---

[25]Vəlixanlı, N.M. Ərəb Xilafəti və Azərbaycan / N.M. Vəlixanlı. – Bakı: Azərnəşr, – 1993, – 157 s.

[26]Vahidov, R.M. Govurqalada arxeloji qazıntılar / R.M.Vahidov. AMM, VI cild, – Bakı: 1965. – s. 167-180

tarixində xüsussi yeri olan Albaniyanın tarixinin məhv olunmasının qarşısını aldı və ermənilərin Tiqranakert miflərinə son qoydu.

Arxeoloji qazıntılar nəticəsində erkən orta əsrlər dövründə Uti vilayətinin ən yaxşı inkişaf etmiş şəhərindən Bərdə, Kaqankat, Qalatəpə, Şortəpə, Əndərob yaşayış məskəni, Qaraköpəktəpə, Govurqalada qədim tikintilərin qalıqlarına, məişət və təsərrüfatda istifadə olunan maddi mədəniyyət nümunələrinin qalıqlarına, incəsənət və sənətkarlıq sahələrinə aid çoxlu sayda nadir maddi mədəniyyət nümunələrinə rast gəlinmişdir. Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, erkən orta əsrlər dövründə bölgənin sakinləri qonşu, eləcə də uzaq tayfa və xalqlarla sıx iqtisadi-mədəni əlaqədə olmuşlar. Bu isə bizə deməyə əsas verir ki erkən orta əsrlərdə bu şəhərlər Uti vilayətinin inkişaf etmiş şəhərləri olmuşdur.

**1.2. Kənd tipli yaşayış yerləri.** Hər bir yaşayış məskəni özündə bir sıra iqtisadi, sosial-mədəni və siyasi qanunauyğunluqları təcəssüm etdirir. Azərbaycanda geniş yayılmış erkən orta əsr yaşayış yerlərinin xarakterik tarixi tiplərindən başlıcası kənd tipli məskənlər olmuşdur. Onlar topoqrafik baxımdan çaykənarı, düzən, yamac və meşəiçi kənd tipləri ilə təmsil olunmuşdur. Çaykənarı kəndlərə mənsub yaşayış yerlərinin əksəriyyəti dağ çaylarının hündür sahilində, meşəiçi kəndlər isə meşə zolaqlarındakı talalarda, alçaq təpələr üzərində yerləşirlər. Yamac kəndlərinin əksəriyyəti yaxşı izolyasiya olunan, külək tutmayan dağın şərq və cənub ətəklərində salınmışlar. Erkən orta əsrlərdə Uti vilayətinin bol şirin su mənbələrinin, həmçinin məhsuldar və münbit qara torpağı, əlverişli mövqeyi burada kənd təsərrüfatının yaxşı inkişaf etməsinə şərait yaratmışdır. Kənd-oturaq əhaliyə məxsus daimi yaşayış evləri, təsərrüfat tikililəri, həyətyanı sahələri, inzibati, sosial-mədəni, dini mərkəzləri, ümumi otlaqları, əkin sahələri, içməli suları, ayrıca qəbirstanlığı olan və əhalinin etnik tərkibinin ümumiliyi ilə xarakterizə olunan tarixən formalaşmış məskəndir. Kənd tipli yaşayış məskəni şəhər tipli yaşayış məskənlərindən fərqlənir. Belə ki, ərazisinin ölçüsünə və mədəni təbəqənin

qalınlığına (1,5-3 m qədər) görə fərqlənirdi. Orta əsrlərdə Böyük kənd yaşayış yerlərinə 3,5 hektardan artıq olan abidələr daxil idi.[27]

Uti vilayətinin kəndtipli yaşayış yerləri içərisində Sov, Papov dərəsi, Nağaratəpə, Qala, Qaratəpə, Əmirəhməd təpəsi, Abbastəpə, Şəfəqkənd və s. abidələr daha çox diqqəti cəlb edir. Uti vilayətində erkən orta əsrlərə aid Sov və yaxud Popov dərəsi adlanan yaşayış yeri Ağdərə rayonunun Canyataq kəndindən 2 km qərbdə yerləşir. Hələ XX əsrin 80-ci illərində buradan yol çəkilərkən və yer şumlanarkən xeyli maddi-mədəniyyət qalıqları və qəbir abidələri aşkar edilmişdir. Bir hissəsi uçmuş qəbir açılarkən iri bir daşa təsadüf edilmişdir. Daş 1,5 metr uzunluğunda, 35-40 sm enindədir. Daşın üzərində stilistik insan təsvir edilmişdir. İnsanın başından yalnız göz və burun hissələri qazma üsulu ilə düzəldilmişdir. Əlləri isə dirsəkdən bükülərək üzünə doğru qatlanmış halda, qabarıq üsulda təsvir edilmişdir. Daş büt Şuşada Xan sarayında yerləşdirilmişdir. Bu daşdan Ağdam rayonunun Boyəhmədli kəndindəki Məlikmollalı qəbirstanlığında və həmin kənddə Dəlləkli yalı deyilən yerdə də aşkar edilmişdir.[28] Yerli əhalinin sadəcə "Qala" adlandırdığı Kaqankat şəhərindən cənubi-qərbə doğru təqribən 5-6 km-də Sarışin adlandırılan meşə ərazisində kənd tipli yaşayış məskənin qalıqları və böyük alban xristian qəbirstanlığı vardır.[29] Kaqankat qalasından 3-4 km yuxarıda, Murovdağın şərq ətəklərində sıx, qalın meşəlik olan ərazini yerli əhali "Qozlu kənd yeri" adlandırır. Həmin ərazidə çoxlu qoz və fıstıq ağacları olan qalın meşəlik yerləşir. Buradan da 8-10 km yuxarıda Murov dağının ətəklərinə doğru qalın meşəliklərin içərsinmdə bina və hasar qalıqları vardır. Bu ərazidən Torağayçay öz başlanğıcını götürür, hansı ki, bu çayın Tərtərlə qovuşduğu yerdə Çaraberd qalası yerləşir.

---

[27]Dostiyev, T.M. Şimal-şərqi Azərbaycan IX-XV əsrlərdə / T.M.Dostiyev. – Bakı: Bakı Universiteti, – 2001, – 293 s.

[28]Göyüşov, R.B. 1971-ci ildə Govurqalada (Ağdam rayonu) aparılmış arxeoloji qazıntıların hesabatı (əlyazma) // Azərbaycan SSR EA Tarix İnstitutu. İnv. № 1-43 20 s mətn, 13 foto və 4 tablo

[29]Bağırzadə, C.V. "Kaqankat (Kalankatuk) şəhərinin tarixi-orxeoloji oçerki / C.V.Bağırzadə. – Bakı: Elm-təhsil, – 2013, – 83 s.

Qaratəpə abidəsi Bərdə şəhərindən cənub-şərqdə yerləşir. O qədər də hündür olmayan yastı təpədən ibarətdir. Ətrafı düz və hamar olduğundan bu təpəni və onun üstündə qoyulan müasir topoqrafik nişanı çox uzaqdan görmək mümkündür. Qaratəpə kurqan deyil, qədim yaşayış yerinin qalığıdır, bütünlüklə mədəni təbəqədən ibarətdir.[30]

**2.3. "Qalalar və Müdafiə istehkamları"** adlı paraqrafda Uti vilayətində erkən orta əsrlərdə mövcud olmuş qalalar və müdafiə istehkamları, onların yaranma səbəbi, sosial-iqtisadi əhəmiyyəti, qurluşu araşdırılmışdır. Bu cür müdafiə istehkamlarına bütövlükdə Azərbaycanın çox ərazilərində rast gəlinir. Zəngin təbii-coğrafi şəraiti, əlverişli torpağı, tranzit mövqeyi Azərbaycan torpaqlarının daim yadelli hücumlarına məruz qalmasına gətirib çıxartmışdır. Ona görə də Uti vilayətinin ətrafında möhkəm müdafiə istehkamının qurulması da məhz bu məkanın mühüm olan təhlükə qarşısında müdafiə qüdrətinin artırılması zərurətindən irəli gəlmişdir. Həmçinin qalaların tikilməsinin başqa səbəbləri də var idi. Azərbaycandakı dağ keçidlərinin əksəriyyətində möhtəşəm bir feodal qalasının olması danılmazdır. Bu baxımdan Uti vilayətində ayrı-ayrı feodallara məxsus qalalarla yanaşı, ümumölkə əhəmiyyəti daşıyan qalalar da inşa edilirdi. Bu cür qalalar bir qayda olaraq ölkənin paytaxtı olan şəhərlərin yanında, hərbi-strateji baxımdan əlverişli bir yerdə tikilirdi.[31] Ümumiyyətlə, feodal şəhərlərini köməkçi qalalarsız təsəvvür etmək çətindir. Ümumölkə əhəmiyyətli qalalar nisbətən böyük olmaqla, onlarda daimi qoşun saxlanılır və silah istehsalı üçün emalatxanalar olurdu. Xüsusi silah anbarları və ərzaq ehtiyati saxlamaq üçün quyular qazılırdı, orada daimi qoşun saxlanıldığından, bir çox ictimai binalarla yanaşı, yaşayış evləri də inşa edilirdi.[32.] Daimi, həm də gizli su ehtiyatları quyusu və s. düzəldilirdi. Getdikcə ümumölkə

---

[30]Исмизаде, О.Ш. Раскопки холма Каратепе в Мильской степи // МИА. – 1965, № 125. – с 72-86.

[31\]Məmmədov, A.M. Gəncəbasar IV-XIII əsrlərdə (tarixi arxeoloji tədqiqat) / A.M.Məmmədov. – Bakı: Elm, – 1993, – 203 s.

[32] Göyüşov, R.B. Qarabağın keçmişinə səyahət / R.B.Göyüşov. – Bakı: Azərnəşr, – 1993, – 83 s.

əhəmiyyətli qalalar bir növ hərbi şəhərə çevrilir və bu növ qalalar bu və ya digər səbəbdən hərbi əhəmiyyətini itirdikdə belə, möhtəşəm yaşayış yerlərindən birinə çevrilirdi. Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, belə qalalardan Kaqankat, Hirək, Hazırəhmədli, II Kürəkçay, Gülüstan qalası kimi möhkəm müdafiə divarlarına malik müdafiə qalaları olmuşdur.

**2.4. "Qəbir və memarlıq abidələri" adlanır**. Erkən orta əsr maddi mədəniyyət abidələri içərisində qəbir abidələrinin tədqiqi və dəfn adətlərinin izlənilməsi böyük əhəmiyyətə malikdir. Belə ki, Uti vilayətində tarixən mövcud olmuş hər bir hər bir yaşayış məskəninin ayrılıqda qəbristanlıqlarının da olduğu arxeoloji qazıntıların nəticələri ilə təsdiqlənir. Yaşayış yerlərinə məxsus qəbirlərdə aparılan tədqiqatlar, həm də həmin dövrün tarixini öyrənmək baxımından böyük əhəmiyyətə malikdir. Ərazidə yaşayışın davamlı olması və bölgənin ayrı-ayrı vaxtlarda müxtəlif imperiyaların təsir dairəsində olması, ilk orta əsrlərdə bir neçə dinin yayılması, həm də müxtəlif dəfn adətlərinin mövcudluğuna səbəb olmuşdur. Bunu həmdə müxtəlif dövrlərə aid aşkar edilmiş dəfn adətlərini özündə əks etdirən maddi mədəniyyət nümunələri qalıqları və qəbir abidələri sübut edir.

Albaniyada tarixi ərazisində yerləşmiş qəbir abidələrində ilk qazıntı işlərinə 1880-ci illərdə başlanılmışdır.[33] Albaniyanın ilk orta əsr qəbir abidələri və dəfn ayinləri haqqında icmal xarakterliilk xüssusi əsərlər R.Göyüşov tərəfindən yazılmışdır. 1958-ci ildə Ağdam ərazində Govurqalada R.Vahidov və R.Göyüşovun rəhbərliyi etdiyi ekspedisya qazıntı işləri aparmış və erkən orta əsrlər dövrünə aid bütpərəst qəbir abidələri, həmçinin Alban hökmdarı Qriqor Hamanının qardaşının dəfn edildiyi daş sarkofaq aşkar edilmişdir.[34] 1963-cü il Bərdə rayonunun Zümürxaç kəndində də qazıntılar aparılmış və daş sarkofaq aşkar

[33]Xəlilov, M. Albaniyanın qəbir abidələri: IV–X əsrlər / M.Xəlilov. Bakı: – 2009. – s. 179

[34]Göyüşov, R.B. 1971 ci ildə Govurqalada (Ağdam rayonu) aparılmış arxeoloji qazıntıların hesabatı (əlyazma) // Azərbaycan SSR EA Tarix İnstitutu. İnv. № 1–43 20 s mətn, 13 foto və 4 tablo .

edilmişdir.[35] 1970-ci illərdə R.Göyüşov Bərdə şəhərinin "Məbəd yeri" adlı sahəsində qazıntı aparmış və VII-VIII əsrlərə aid xristian qəbirləri aşkar edilmişdir.[36] 1972-1973-cü illərdə Q.S.İsmayılovun rəhbərliyi altında Füzulidə Yedditəpədə arxeoloji qazıntılar nəticəsində (III-VI əsrlərə aid) 25 daş qutu və bir torpaq qəbir üzə çıxarılmış və tədqiq olunmuşdur.[37] Hansı ki, Uti əyalətində müxtəlif tip qəbir abidələrinin movcudluğu (Torpaq qəbirlər, Daş qutular, Daş sanduqələr, Sərdabələr) xüsusən Tərtərçay vadisində hələ qədim zamanlardan gur yaşayışın olmasını sübut edir. Ərazidə müxtəlif dəfn adətlərinin olmasına səbəbi isə ərazinin müxtəlif zamanlarda yadellilərin tapdağı altında olması ilə əlaqədardır. Bunu ərazidən müxtəlif dövrlərə aid aşkar edilmiş dəfn adətlərini özündə əks etdirən maddi mədəniyyət nümunələri qalıqları və qəbir abidələri sübut edir. Məhz IV əsrdən başlayaraq, artıq Uti vilayətində feodal münasibətləri formalaşır və xristianlıq feodalizmin əsas ideologiyası kimi dövlət dininə çevrilir və dini pərakəndəlik yaranır. VII əsrdə ərəblər tərəfindən işğalından sonra əhalinin əsas hissəsi arasında islam dininin yayılması üçün hər cür şərait yarandı. Uti vilayətinin dağlıq hissəsində yaşayan və nisbətən azlıqda qalan xristian əhalisi isə öz dini taleyini erməni Qriqorian kilsəsinə bağlamalı oldu. Buna müvafiq olaraq düzən hissədə müsəlmanlılıq, dağlıq hissədə isə şərq xristianlığına məxsus abidələr yaranırdı, bu isə özünü memarlıq abidələrində göstərirdi. Məhz bu dövrdə islamın Azərbaycan ərazisində geniş vüsəti ilə əlaqədar dini-sitayiş məqsədli tikililərin özünəməxsus qurluşları formalaşmışdır. Azərbaycanda bu dövrdə sürətlə inkişaf edən memarlıq tiplərindən biri qülləvari türbələrdir, ki bu tipli memarlıq abidələrində islam mədəniyyətinin təsiri özünü açıq şəkildə göstəririr. Bu cür abidələrə Bərdə məbədini,

---

[35]Xəlilov, M. Albaniyanın qəbir abidələri: IV–X əsrlər / M.Xəlilov. Bakı: – 2009. – s. 179.

[36]Геюшев, Р.Б. Христианство в Кавказской Албании / Р.Б.Геюшев. – Баку: Элм, – 1984. – 192 с.

[37]İsmayılzadə, Q.S. Arxeoloqun çöl gündəliyindən / Q.S.İsmayılzadə. – Bakı: Xəzər Universiteti, – 2009, – 202 s.

Təzəkənd məbədini, Kaqankat məbədini, Böyük Arran (Müqəddəs Yakob) monastırı, Govurqala məbədini göstərə bilərik.

**2.5. "Arxeoloji materialların təsnifatı"** adlanan paraqrafda isə Uti vilayətinin erkən orta əsrlər dövrünə aid olan maddi mədəniyyət qalıqları təhlil edilmişdir. Tapıntıların əksəriyyəti Şirsiz saxsı məmulatlarından, daş, metal əşyalardan ibarətdir. Ancaq bununla yanaşı erkən orta əsrlərin son mərhələsinə yaxın əsasən IX əsrin əvvəllərindən başlayaraq artıq şirli saxsı qablar istehsalına da başlanıb. Bununla bağlı olaraq ilk orta əsrlərə aid gil qabları əsasən şirsiz keramika olmaqla aşağıdakı növlərə bölünür: küplər, sərniclər, xeyrələr, dopular, bərnilər, qapaqlar, çıraqlar və başqa qablar. Həmçinin zoomorf qablar da tədqiq edilmişdir. Belə zəngin maddi mədəniyyət nümunələri Bərdədə, Şortəpədə, Qaraköpəktəpədə, Yedditəpədə, Govurqalada, Kaqankatda v.s yaşayış məskənlərində tapılmış və təhlil edilmişdir.

**III fəsil "Təsərrüfat həyatı"** adlanır və dörd paraqrafa bölünür.

**3.1. Əkinçilik.** Azərbaycanın əlverişli iqlim ehtiyyatına, şirin su qaynaqlarına, gözəl təbiətə malik olması ən qədim insanların burada məskunlaşmasına şərait yaratmışdı. Arxeoloji qazıntılar və tarixi faktlar sübut edir ki, Azərbaycanın Kür və Araz çayları arasında yerləşən ərazisi ən qədim insanların yaşayış məskəni olmuşdur. Arxeoloji tədqiqatların nəticələri göstərir ki, erkən orta əsrlərdə Uti vilayətində ənənəvi əkinçilik mədəniyyəti və bu mədəniyyətə həm müsbət, həm də mənfi təsir edən tarixi amillər olmuşdur. Ərazinin ən qədimdən məskunlaşmış yaşayış yerlərindən biri olması buradakı əkinçilik mədəniyyətinə müsbət təsir etdiyi halda, müxtəlif tarixi dövrlərdə yadellilərin basqınına məruz qalması bölgənin təsərrüfat həyatına dağıdıcı və ya mənfi təsir etmiş olur. Yunan müəlifi Starbon da qeyd edirdi ki, Kür və başqa çaylar daşdığı zaman əmələ gələn lil yeri çox münbit edir və bol məhsul verir. S.M.Qazıyev yazır ki, Kür, Alazan çayı daşdıqdan sonra lil basmış yerlərdə əhali bostan, darı və çəltik əkir. Əkinçilikdə dəmyə əkinçilik ilə yanaşı dağətəyi və qismən də dağlıq rayonlarda arxlar, düzən rayonlarda isə (Mil-Qarabağ və Muğan düzənliklərində) Kür və Araz çaylarından çəkilmiş kanallar (Govurarx) vasitəsilə suvarılan, yəni süni suvarmaya əsaslanan əkinçilik də geniş yayılmış-

dır.[38] Müxtəlif dənli bitkilər yetişdirilən bölgədə təkcə süni suvarılan əkin sahələri deyil, dəmyə əkin yerləri də öz məhsuldarlığı ilə seçilib.[39] Bu dövrün əkin-biçin alətləri içərisində kotan, xış, oraq, dəryaz, kavahın və s. vardır. Arxeoloji tədqiqatlar zamanı aşkarlanmış metal əkin və biçin alətləri, həmçinin buğda, arpa, çəltik, darı və s. qalıqları bölgədəki əkinçilik mədəniyyətinin səviyyəsinin göstəriciləridir.

**3.2. Bağçılıq və bostançılıq.** Erkən orta əsrlərdə Uti vilayətində əlverişli təbii şəraitin o cümlədən iqlimə uyğun olaraq əkinçiliyin bir qolu kimi bağçılıq və bostançılıq geniş inkişaf etmişdi. Bu barədə bir çox dəyərli mənbələrdə məlumat verilmişdir. Məsələn məşhur ərəb səyyahı Əbu Düləfin qeydlərində vurğulanır ki, Araz çayının sahillərində yetişdirilən nar sortunun heç bir ölkədə tayı yoxdur. Eyni zamanda İbn Havqəl qədim Bərdə şəhərində yetişdirilən "şabalıd", "zoğal" və "əncir" kimi bağ bitkilərinin adlarını çəkir.[40] Müəllifi naməlum olan "Əcaib əd-dünya" adlı tarixi mənbədə Beyləqanda və onun ətraf ərazilərində nar, əncir, tut və s. meyvələrin yetişdirildiyindən bəhs edilir. Həmin mənbədə Uti vilayətinin tərkib hissəsi və başlıca iqtisadi mərkəzlərindən biri olan Bərdədən çoxlu miqdarda şirin nar ixrac olunmasından danışılır.[41] Albaniyada, həmçinin Uti bölgəsində ilk orta əsrlərdə geniş becərilən bitkilərdən biri də üzüm olmuşdur. XIII əsrin birinci rübündə özünün Azərbaycan səyahətindən danışan Yaqut Həməvi yazır: *"Mən heç yerdə burada olan qədər çoxlu bağ görməmişəm".*[42]

Albaniyada üzümçülüyün inkişafına dair yazılı mənbələrin verdiyi məlumatları eyni zamanda aparılmış arxeoloji qazıntılar zamanı aşkar-

---

[38]Bünyadov, T.Ə. Azərbaycanda əkinçiliyin inkişaf tarixinə dair / T.Ə.Bünyadov. – Bakı: Elm, – 1964, – 447 s.

[39]Cavadov, Q.C. Əkinçilik mədəniyyətinin sorağı ilə / Q.C.Cavadov. – Bakı: Maarif, – 1990, – 200 s.

[40]Hacıyev Q.Ə. Bərdə şəhəri coğrafi, siyasi və mədəni tarixi / Q.Ə.Hacıyev. – Bakı : Uniprint. – 2008, – 250 s.

[41] Əhmədov Q.M. Orta əsr Beyləqan şəhəri / Q.M.Əhmədov. – Bakı: Elm, – 1979, – 197 s.

[42] Əliyeva, N.A. Azərbaycan Yaqut əl-Həməvinin əsərlərində / N.A.Əliyeva. – Bakı: Çaşıoğlu, – 1999, – 244 s.

lanmış maddi nümunələr də təsdiq edir. Beyləqan ərazisində aparılmış arxeoloji qazıntılar erkən orta əsrlər dövrünə aid mədəni təbəqələrdən çoxlu miqdarda üzüm tumları aşkar edilmişdir. M.Kalankatlı qeyd edir ki, erkən orta əsrlərdə Azərbaycanda çoxlu miqdarda və müxtəlif növlərdə olduqca keyfiyyətli şərablar hazırlanırdı.[43]

Arxeoloji qazıntılar nəticəsində Bərdə, Kaqankat, Şortəpə, Yeddi-təpə, Qaraköpəktəpə, kimi yaşayış yerlərində bağçılıq və bostançılıq təsərrüfatında istifadə olunan müxtəlif formalı alətlərə rast gəlinib. Süni suvarma şəbəkələrinin genişləməsi bu sahələrin daha da yaxşı inkişaf etməsi və məhsuldarlığın artması üçün şərait yaratmışdır.

**3.3. Maldarlıq**. Erkən orta əsrlərdə əhalisinin təsərrüfatında əsas yerlərdən birini də maldarlıq tuturdu. Maldarlıq təsərrüfatı Azərbaycan ərazisində erkən cəmiyyətlərin mədəni-tarixi səviyyəsinə müvafiq yaranan və inkişaf edən ikinci vacib sahəsi olmuşdur.[44] Azərbaycanda başqa təsərrüfat sahələrilə yanaşı maldarlığın da inkişafı təbii-coğrafı şəraitlə üzvi surətdə bağlı olmuşdur. Maddi istehsalın ən qədim sahələrindən biri olan maldarlıq təsərrüfatının yaranmasından sonra, insanların həyat uğrunda mübarizə işi əhəmiyyətli dərəcədə asanlaşmış və bununla əlaqədar olaraq onların məskunlaşdığı ərazi də xeyli genişlənmişdir. Təbii-coğrafi şərait burada yaylaq-qışlaq maldarlığının inkişafına zəmin yaradırdı. Arxeoloji qazıntılar zamanı aşkarlanmış osteoloji qalıqlar göstərir ki, Uti vilayətinin iri və xırdabuynuzlu maldarlıqla yanaşı qatırçılıq, atçılıq, dəvəçilik kimi maldarlığın digər sahələri də inkişaf etdirilərək tələbata uyğun şəkildə istifadə edilmişdir. Arxeoloji tədqiqatlar zamanı Utidəkı yaşayış yerlərində çoxlu sayda at, dəvə, qoyun, öküz və s. tipli ev heyvanlarına məxsus skelet qalıqlarına, daşdan yonulub hazırlanmış at və qoç fiqurlarına maldarlıq məhsullarının hazırlanması üçün istifadə olunmuş müxtəlif növ gil qab nümunələrinə, sərniclərə, nehrələrə və s. rast gəlinməsi, tarixən bu bölgədə maldarlığın bütün növ sahələri ilə məşğul olunmasından

---

[43]Kalankatlı, M. Albaniya tarixi // tərc. Z.M.Bünyadov. – Bakı: Elm, – 1993, – s. 235.

[44]Məmmədov, A.M. Gəncəbasar IV-XIII əsrlərdə (tarixi arxeoloji tədqiqat) / A.M.Məmmədov. – Bakı: Elm, – 1993, – 203 s.

xəbər verir. Bölgədə maldarlığın inkişafına rəvac verən amillər, insanlığın bu təsərrüfat sahəsinə olan böyük ehtiyacından irəli gəlirdi. Belə ki, ətə, yuna, gön dəriyə, südə, yağa və s. heyvandarlıq məhsullarına böyük miqyasda tələbat meydana gəlmiş və inkişaf etmişdir.[45]

**3.4. Sənətkarlıq.** Uti bölgəsində sənətkarlığın inkişaf səviyyəsi təbii-coğrafi şərait və xammal ehtiyyatlarının bolluğu ilə əlaqəlidir. Arxeoloji qazıntılar zamanı məlum olmuşdur ki, sənətkarlıq inkişaf etdkcə ayr-ayrı sənət sahələri daxilində, o cümlədən dulusçuluqda, şüşə və metal istehsalında ixtisaslaşma getmişdir.

**3.4.1. Dulusçuluq.** Mənşəyi Neolit dövründən başlayan dulusçuluq minilliklər boyu bir inkişaf yolu keçmiş və formadan-formaya düşərək ən kütləvi istehsal sahəsinə çevrilmişdir. Sənətkarlığın bu sahəsi şəhər və onunla əlaqədar olan ətraf əhalisinin ən geniş gündəlik tələblərinə xidmət etdiyi üçün xalqın mədəni və məişət həyatı ilə bilavasitə yaxından bağlıdır. Azərbaycanın ilk orta əsrlərə aid abidələrindən tapılan arxeoloji materialların öyrənilməsi ilk orta əsrlərdə Azərbaycan əhalisinin iqtisadiyyatında müəyyən yer tutmuş dulusçuluq sənətinin inkişaf mərhələsini və onun xüsusiyyətlərini öyrənməyə imkan verir. Öz forma və tərkibi cəhətcə başqa arxeoloji materiallara nisbətən daha yaxşı qalmış ilk orta əsr gil məmulatı özündən əvvəlki və sonrakı dövr gil məmulatından fərqlidir. Bu fərq əsasən gil məmulatının miqdarında deyil, onun texnologiyasında, xüsusilə formalaşdırılmasında daha aydın hiss olunur. Belə bir vəziyyətə əsaslanan tədqiqatçıların əksəriyyəti bu dövrü dulusçuluqda düşgünlük, geriləmə dövrü kimi xarakterizə edirlər.[46] Dulusçuluq dedikdə, gildən hazırlanan məmulatlar nəzərdə tutulur. A.Mustafayev gil məmulatı istehsalını dulusçuluq, kərpickəsmə, suvaqçılıq və kaşıçılıq kimi sahələrə bölür.[47] Tarix boyu Azərbaycan ərazisində

---

[45]Məmmədov, T.M. Qafqaz Albaniyası ilk orta əsrlərdə / T.M.Məmmədov. – Bakı: Təhsil, – 2006, – 400 s.

[46] Bünyadova, Ş.T. XII-XVI əsrlərdə Azərbaycanda dulusçuluq sənəti haqqında -Bakı: Azərbaycan arxeologiyası jurnalı, – 2013. c. 16 , № 2, – s.72-81.

[47]Mustafayev A.H. Azərbaycanda sənətkarlıq, (tarixi-etnoqrafik tədqiqat). A.H.Mustafayev. – Bakı: Altay, – 1999, – 440 s.

çoxsaylı gil məmulatlar istehsal olunmuşdur. Gildən hazırlanan məmulatlar su daşımaq (səhəng, cürdək, bardaq, kuzə, küp), su saxlamaq (squrqur, dolça, parç, tayqulp), yuyunmaq üçün (aftafa, lüləyin, fəşir), mətbəx qabları (çölmək, qazança, küvəc, piti dopuları, çilovsüsən, həlimdan), çörəkbişirmə vasitələri (kürə, təndir, sac, manqal) çoxluğu ilə fərqlənir. Azərbaycanda ilk orta əsr dulusçuluq sənətinin tədqiq edilməsinin vacibliyi arxeoloji qazıntılar zamanı aşkarlanmış materialların bolluğu ilə də əlaqəlidir.[48] Bərdə şəhərində qazıntılar zamanı alt təbəqədən əldə edilən saxsı məmulatları III-VIII əsrlərə aid edilir. Buradan əldə edilən dulus məmulatları məişət və təsərüffat qablarından, tikinti materiallarından və eləcə də qismən zoomorf qablar və uşaq oyuncaqlarından ibarətdir.[49] Dulus məmulatları içərsində ən çox rast gəlinən şirsiz məişət və təsərüffat qablarıdır.

Uti vilayətində tapılan qazan nümunələri əsas etibarilə yarımşar formadadır, onların əksəriyyətinin dairəvi yastı oturacağı var. III–VIII əsrlərə aid qazanlar əsasən əl ilə kobud şəkildə hazırlanmışdır. Belə qazanlara ən çox Qaraköpəktəpədə rast gəlinmişdir.[50] Daha sonrakı dövrlərdə dulus sənətkarlığı müsəlman mədəniyyətinin təşəkkülü ilə tamamilə yeni görkəm almış, tətbiqi incəsənətin ən bariz və ən geniş yayılmış sahəsinə çevrilmişdir.

**3.4.2. Metal məmulatları**. İnsan cəmiyyətinin hər hansı bir ictimai-iqtisadi durumunun aydınlaşdırılmasında əsas etalon əmək alətləridir. Burada insanların istifadə etdiyi əmək alətlərinin formaları o qədər də əsas rol oynamır. Vacib olan əmək alətlərinin nədən hazırlanmasıdır. Məhz əmək alətlərinin hansı materiallardan hazırlanmasına görə insan cəmiyyəti daş, mis-daş, tunc və dəmir dövrünə bölünür.

**Dəmirçilik.** İlk orta əsrlərdə əsas əmək alətləri və silahlar dəmirdən düzəldilirdi. Dəmirtikintidə, təsərrüfatda və məişətdə geniş tətbiq olu-

---

[48]İbrahimov, F.Ə. Azərbaycanın orta əsr şəhərlərində metalişləmə sənəti / F.Ə.İbrahimov. – Bakı: Elm, – 1988, – 176 s.

[49] Nuriyev, A.B., Babayev Ə.H. Bərdə şəhərinin tarixi-orxeoloji oçerki (antik və orta əsrlərdə) / A.B.Nuriyev, Ə.H.Babayev. – Bakı: Nurlan, – 2001, – 182 s.

[50] Исмаилов, Г.С. Поселение Каракепектере –древний памятник материальной культуры Азербайджана // – Bakı: Azərb.SSR EA Xəbərləri,–1969, № 1, – s.59-71

nurdu. Arxeoloji qazıntılar zamanı erkən orta əsrlər dövrünə aid Uti vilayətinin mühüm mərkəzlərindən Bərdədə aşkara çıxarılan təsərrüfat alətləri, məişət qabları, müxtəlif silah növləri, qalıqları və numizmatik dəlilər metalişləmənin inkişaf etdiyini söyləməyə imkan verir.

**Misgərlik.** Qafqaz Albaniyası tarixən yeraltı və yerüstü sərvətlərlə zəngin olmuşdur. Musa Kalankatuklu da öz əsərində bu Qafqaz Albaniyasının faydalı qazıntılarla zəngin olması haqqında məlumat verir. Bu baxımdan da Albaniyada, xüssusən Uti vilayətində sənətlərin inkişafına böyük imkanlar açılmışdı. Arxeoloji qazıntılar zamanı Qarabağ, Naxçıvan, Mingəçevir, Gədəbəy, Qazax, Gəncə və s. yerlərdən tapılmış metaldan hazırlanmış belə sənət əsərlərinin varlığı da deyilənləri təsdiq edir. Bu tapıntılar Albaniyada sənətkarların ustalıq bacarıqlarının yüksək olduğunu sübut edir.

**3.4.3. Şüşə məmulatı**. R.M.Vahidova görə Azərbaycanda şüşə qab istehsalını yeni yaranan feodal istehsal münasibətləri ilə bağlamaq daha düzgün olardı ki, bu da III-IV əsrlərə aiddir.[51] Albaniya ərazisi şüşəyə lazım olan kvarslı qum yataqları, odadavamlı gillər, onun bişirilməsi üçün lazım olan yanacaq vasitələri, şüşənin boyanmasında istifadə edilən müxtəlif rəngllər almaq üçün xammal ehtiyatı ilə zəngindir.[52] Erkən orta əsrlərə aid Govurqalanın şüşə məmulatı əsasən qazıntının birinci, aşağı mədəni təbəqəsindən tapılmışdır. Şüşə məmulatının böyük bir qismini kiçikhəcimli ətir və ya dərman qabları təşkil edir. 1972-ci ildə Govurqalada tapılmış şüşə ətir qablarının oxşarı ancaq Azərbaycanda aşkar edilmişdir. Məhz buna görə də qabın ancaq yerli şüşə istehsalı nümunəsi olduğu haqqında fikir söyləmək olar. Bununla yanaşı aşkar edilmiş şüşə qablar içərsində çıxdaş nümunələr də vardır ki, bu da yerli istehsal haqqında fikir söyləmək üçün ən tutarlı elmi dəlilərdəndir. Həmçinin Bərdə ərazisində üç ədəd şüşə ətir qabı aşkar edilmişdir. Qablardan ikisinin səthi qabırğavarı konnelurlə bəzədilmiş, digəri isə sayadır. 1975-ci ildə Q.İsmayılzadə erkən orta

---

[51]Vahidov, R.M. Mingəçevir III-VIII əsrlərdə. – Bakı: Azərbaycan EA Nəşriyyatı, – 1961, – 158 s.

[52]Nuriyev, A.B. Qafqaz Albaniyasının şüşə məmulatı və istehsalı tarixi / A.B.Nuriyev. – Bakı: Elm, – 1981, – 168 s.

əsrlər dövrünə aid Füzuli rayonun Yedditəpə ərazisində aparılan arxeoloji qazıntılar zamanı iki ədəd şüşə qab nümunəsi aşkar etmişdir. Tapılan üzüklərin çoxunun qaşında möhürlər vardır. Üzüklərdən birinin şüşə qaşında ikibaşlı qartal təsvir edilmişdi. Bütünlüklə şəffaf dağ süxurundan yonulmuş başqa bir üzüyün üstündə əllərini yuxarı qaldırmış uzun əbalı kahin təsviri verilmişdi.[53] Bütün bu faktlar bir daha göstərmiş oldu ki, Uti bölgəsi Azərbaycanın bəhs etdiyimiz dövrdə yaxşı inkişaf etmiş şüşə istehsalı mərkəzlərindən olmuşdur.

Erkən orta əsrlərdə Albaniyada sənətkarlığın digər sahələri də inkişaf etmişdir. Erkən orta əsrlərdə Albaniyada sənətkarlığın digər sahələri də , daşişləmə sənəti də inkişaf etmişdir. Epiqarafik abidələr (daş kitabələr) Qarabağ ərazisində daha çox rast gəlinmişdir. Kaqankat şəhərinin ustaları inşaat işlərini yaxşı bilən mahir daşişləmə, oyma peşəkarları olmuşlar.Bunu şəhər qalanın inşasında, yonma daşların və daş kitabələrin timsalında göstərmək olar. Kaqankat şəhəri ərazisindəki epiqrafik abidələr əsasən qəbirüstü daşlardan ibarətdir[54].

Azərbaycanda çox yerdə olduğu kimi, Qarabağda da yunun, ipəyin və pambığın istehsal olunduğu bir yerdə toxuculuğun meydana gəlməsi və inkişafı labüd idi.[55] Toxuculuq bədii ənənədən, xammaldan (yun, ipək, pambıq) asılı olaraq müxtəlif kompazisyalı bəzəklərə malik, müxtəlif üsullarla bəzək və məişət əşyaları toxunmuşdur. Bunu arxeoloji qazıntılar nəticəsində tapılan maddi mədəniyyət nümunələri sübut edir.

Aparılan yazılı və arxeoloji tədqiqatlar aşağdakı mühüm **elmi nəticələrə** gəlməyə imkan vermişdir. Beləliklə deyə bilərik ki, erkən orta əsrlərdə Albaniyanın Uti vilayətinin yaşayış məskənləri mövzusu

---

[53]Исмаилов Г.С., Даниелян О.А. Итоги археологических исследований 1975 года в междуречье Гуручай и Кенделенчай / АЭИА (1975 г.). – Баку, Элм, – 1978, – с. 19-21.

[54]Bağırzadə, C.V. Ağdərə IV–XIII əsrlərdə (tarixi-arxeoloji tədqiqat) / C.V.Bağırzadə. – Bakı: Elm-təhsil, – 2014, – 126 s.

[55]Hacıyev Q.Ə. Bərdə şəhəri coğrafi, siyasi və mədəni tarixi / Q.Ə.Hacıyev. – Bakı : Uniprint. – 2008, – 250 s.

ilk dəfə geniş şəkildə tədqiq edilmiş və maddi mədəniyyətimiz arxeoloji və yazılı mənbələr əsasında ümumiləşdirilərək öyrənilmişdir.

İlk dəfə olaraq Uti vilayətinin erkən orta əsr yaşayış yerləri abidələri qruplaşdırılaraq kompleks şəkildə müqayisəli təhlil edilmiş, Uti vilayətinin tarixi coğrafiyası (7), siyasi tarixi araşdırılmış, şəhər tipli, kənd tipli yaşayış məskənləri tədqiq edilmiş (2; 5; 9), yaşayış məskənlərində olan qalalar, müdafiə istehkamları (8), qəbir abidələri, Uti vilayətinin əhalisi təsərrüfat həyatı, sənətkarlığı, ticarət əlaqələri, dini abidələri araşdırılmış yazılı və arxeloji maddi mədəniyyət nümunələri əsasında öyrənilmişdir (6).

İlk dəfə olaraq Albaniyanın Uti vilayətinin erkən orta əsrlərdə və müasir dövrdə əhatə etdiyi ərazilərin xəritəsi hazırlanmışdır. Erkən orta əsrlərdə Albaniyanın Uti vilayətinin yaşayış məskənləri tədqiqat işindən belə nəticəyə gəlmək olur ki,ərazi mühüm ticarət-karvan yolunun üzərində yerləşməklə ilk orta əsrlərdə Azərbaycan xalqının iqtisadi, mədəni,siyasi həyatında mühüm rol oynamışdır(10).

Müxtəlif vaxtlarda bölgənin və qonşu ərazilərin ilk orta əsr abidələrində aparılmış arxeoloji tədqiqatların nəticələri ilk dəfə olaraq ümumiləşdirərək elmi süzgəcdən keçrilmiş və Utinin Qafqaz Albaniyasının tarixindəki yeri müəyyən edilmişdir.

Sonda sonsuz qürur və fəxarət hissi ilə qeyd edilməlidir ki, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 27 sentyabr-10 noyabr 2020-ci il tarixində aparılan 44 günlük Vətən müharibəsi və 19-20 sentyabr 2023-cü il lokal xarakterli antiterror əməliyyatımız, şanlı Ordumuzun qəhrəmanlığı nəticəsində bütün işğal altında olmuş ərazilərimiz, o cümlədən, tarixi Qafqaz Albaniyasının (Azərbaycan) Uti vilayətinə daxil olan ərazilərimiz də işğaldan azad edilmişdir. İşğal zamanı bir çox yaşayış yerləri dağıdılaraq maddi-mənəvi irsimizə ciddi ziyan vurulsa da qələbəmiz işğaldan azad olunmuş ərazilərdə tədqiqat işlərini yenidən davam etdirməyə və tutarlı tarixi faktlar əldə etməyə imkan verəcək.

**Dissertasiyanın məzmununu əhatə edən aşağıdakı elmi məqalələr nəşr olunmuşdur:**

1. Qarabağın ilkin Orta əsr tarixinin mənbəşünaslığı // – Bakı: Bakı Dövlət Universiteti, Tarix və onun problemləri, – 2015. №3, – s. 261-267.
2. Bərdə erkən Orta əsrlərdə Qarabağ bölgəsinin inkişaf etmiş mərkəzlərindən biri kimi // – Bakı: Qarabağın Arxeoloji irsi. Beynəlxalq elmi konfransın materialları. – 2016, – s. 76-79.
3. Qafqaz Albaniyasının Uti vilayətinin Qalatəpə yaşayış məskəni // Gənc alimlərin II beynəlxalq elmi konfransı, – Gəncə: Gəncə Dövlət Universiteti, – 2017, – s. 127-128.
4. About research of some main early middle ages christian monuments of Azerbaijan (based on materials of Garabakh territory) // – Pliladelphia, USA,Theoretical and Applied Sciense. – 2017. №12 (56), – p. 10-12.
5. О поселениях «Галатепе и шортепе» раннего средневековья провинции Ути // – Переяслав-Хмелъницкий: Актуалъные научные исследования в современном мире, – 2017. №11(31), – с. 61-66.
6. İlk Orta əsrlərdə Uti vilayətində dulusçuluq sənəti // – Bakı: AMEA, Tarix İnistitutu, Elmi Əsərlər, – 2018, cild:73, – s. 171-180
7. Историко-географические территории Албанской провинции Ути в раннем средневековье // – Kiyev: Гилея, – 2018. №11, – с. 192-196.
8. Erkən orta əsrlərdə Uti vilayətində yerləşən müdafiə istehkamları haqqında // – Bakı: Bakı Dövlət Universiteti, Tarix və onun problemləri, – 2018. №3, – s. 371-375.
9. Qaraköpəktəpə arxeoloji abidəsi // – Gəncə: Gəncə Dövlət Uni-versitetinin Elmi Xəbərləri, – 2018. №3, – s. 272-276.
10. Источниковедение истории провинчии Ути в раннем средневековье (III-IX вв.) // – Scientific Light (Wroclow, Poland). – 2018. №16, – с. 12-15.

Dissertasiyanın müdafiəsi 31 may 2024-cü il tarixdə saat $11^{00}$-da AMEA Naxçıvan Bölməsi nəzdində fəaliyyət göstərən ED 1.13 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 7000, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 76, AMEA Naxçıvan Bölməsi, əsas bina, I mərtəbə, akt zalı

Dissertasiya ilə AMEA Naxçıvan Bölməsinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA Naxçıvan Bölməsinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat __ aprel 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 25.04.2024
Kağızın formatı: 60/84, 16/1
Həcm: 50.095
Tiraj: 100